**UNEC**

**Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi**

**Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)**

**Təsdiq edirəm: ____________**
**“İqtisadiyyat” kafedrasının**

**müdiri: i.ü.f.d.,dos. S.İ.Hümbətova**
**04 fevral 2025 -ci il**

# DAVRANIŞ İQTİSADİYYATI
# FƏNNİ ÜZRƏ İŞÇİ TƏDRİS PROQRAMI
## (Sillabus)

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| Fənnin adı | **DAVRANIŞ İQTİSADİYYATI** | | | | | |
| Fakültə | **Maliyyə /Biznes və menecment** | | | | | |
| Kafedra | **İqtisadiyyat** | | | | | |
| Fənnin kodu | **00221** | | | | | |
| Fənnin növü | **Seçmə** | | | | | |
| Tədris dili | **Azərbaycan** | | | | | |
| Tədrisin forması, qrup, tədris yükü | Əyani **Qrup** | Semestr **yaz** | Tədris yükü: **30 saat** | Mühazirə **30 saat** | Məşğələ **30 saat** | Kredit **6** |
| Fənni tədris edən müəllim: S.A.A | | | | | | |
| Tələbələr üçün qəbul vaxtları: | | | | | | |
| Müəllimlə əlaqə: İş telefonu, e-mail ünvanı | | | | | | |

Bu sillabus Devrim Dumludağ, Özge Gökdemir, Levent Neyse, Ester Rubenin “İktisatta davranışsal yaklaşımlar” Türk dilində, Nick Wilkinson and Matthias Klaes “An Introduction to Behavioral Economics” İngilis dilində; “Поведенческая экономика: современная парадигма экономического развития” Q.P.Juravlyovanın ümumi redaktəsi ilə Rus dilində dərsliklərə uyğun olaraq hazırlanmışdır.

| | |
|---|---|
| **I. Fənnin təsviri** | Davranış iqtisadiyyatı (*behavioral economics*) – nisbətən yeni elm və yeni tədris fənnidir. Fənlərarası xarakter daşıyan, iki elmin - psixologiya ilə iqtisadiyyatın “kəsişməsində” yerləşən davranış iqtisadiyyatı həm insanlar, həm də başqa agentlər tərəfindən qərarlar qəbul edilməsinin psixoloji əsasını və dinamikasını aşkar etməyə imkan verir.<br>Müasir dövrdə davranış iqtisadiyyatını nəzərə almamaq olmaz, çünki davranış yanaşması:<br>– fərddən və firmadan başlamış bazarlara və regionlara qədər müxtəlif subyektlərin fəaliyyətinə xas olan cəhətdir;<br>– müntəzəm olaraq təkrarlanır və mürəkkəbləşir;<br>– ənənəvi iqtisadiyyatın qanunlarına heç də həmişə riayət etməyən agentlərin fəaliyyətinin əsas motivlərini aşkar etməyə imkan verir.<br>Mütəxəssislərin çoxu yaxın vaxtlara qədər davranış iqtisadiyyatını ikinci dərəcəli, vacib olmayan elm hesab edir, ona yetkin ənənəvi iqtisadiyyatın “həddi-buluğa çatmamış qohumu” kimi baxırdı. Bununla belə, ənənəvi iqtisadiyyatın tərəfdarları hər halda etiraf edirdilər ki, ayrı-ayrı fərdlər bəzən düşünülməmiş, səmərəsiz hərəkətlərə yol verir, amma bunu həmişə nəzəri cəhətdən əsaslandırırlar. Onlar iddia edirdilər ki, biheviorizmin tərəfdarları olan psixoloq və iqtisadçıların eksperimentləri nə qədər maraqlı olsa da, bu eksperimentlər rasional modelləri təkzib etmirlər, çünki onlar nəzarət edilən və rasional davranışın əsas tənzimçisinin – bazarın rəqabət mühitinin olmadığı şəraitdə keçirilir.<br>Davranış iqtisadiyyatı elmi cəmiyyətin yeni intellektual platforması, yeni istiqamət kimi formalaşır. Bu istiqamət çərçivəsində müxtəlif seçim şəraitində fərdin rasional davranışının formallaşdırılmış modellərinin hazırlanmasından onların eksperimental və empirik yoxlanması prosesinə keçid baş verir, ənənəvi iqtisadi nəzəriyyənin və ondan irəli gələn qanunauyğunluq və tendensiyaların təsərrüfat fəaliyyətinin real faktlarına uyğunluq (və ya fərqlilik) dərəcəsi müəyyənləşdirilir.<br>Davranış iqtisadiyyatı fənnini tədris edən müəllimlərin qarşıya qoyduğu əsas hədəflər bunlardır:<br>– psixologiya elminin nailiyyətləri ilə müasir iqtisadiyyatın qarşılıqlı təsiri haqqında təsəvvür formalaşdırmaq;<br>– müasir iqtisadiyyatda eksperimentlərin rolunu açıqlamaq;<br>–insan davranışının aşkar edilmiş qanunauyğunluqlarının iqtisadi nəzəriyyəyə tətbiq olunmasının mümkünlüyünü nümayiş etdirmək;<br>– davranış nəzəriyyəsinin praktiki tətbiqinin müxtəlif istiqamətlərini nəzərdən keçirmək;<br>– iqtisadi modellərin qurulmasının mənasını izah etmək və onlarla bağlı problemləri təsvir etmək;<br>– iqtisadi-psixoloji modellər əsasında müxtəlif proqnozlar hazırlayan dövlət idarəçiliyi təsisatları üçün tövsiyələr hazırlamaq. |

| | |
|---|---|
| **II. Fənnin məqsədi və vəzifələri** | "Davranış iqtisadiyyatı" fənninin öyrənilməsi mikroiqtisadi və nanoiqtisadi səviyyədə ailə təsərrüfatı, firma və fərdin qərar qəbul edilməsi prosesinin öyrənilməsi üçün zəruri əsasdır.<br><br>**Fənnin tədrisinin məqsədi:**<br>"Davranış iqtisadiyyatı" fənninin öyrənilməsinin məqsədi müasir elm və təsərrüfat praktikası üçün aktual olan, müxtəlif psixoloji hadisələrin, emosiyaların və qrup halında dinamikanın iqtisadi qərarlar qəbul edilməsinə necə təsir göstərməsini aşkar edən mövzuları tədqiq etməkdir. Davranış iqtisadiyyatı *(behavioral economics)* fənlərarası xarakter daşıyan, iki elmin - psixologiya ilə iqtisadiyyatın "kəsişməsində" yerləşən nisbətən yeni elmdir. Davranış iqtisadiyyatı yeni istiqamət kimi formalaşır. Bu istiqamət çərçivəsində müxtəlif seçim şəraitində fərdin rasional davranışının formallaşdırılmış modellərinin hazırlanmasından onların eksperimental və empirik yoxlanması prosesinə keçid baş verir, ənənəvi iqtisadi nəzəriyyənin və ondan irəli gələn qanunauyğunluq və tendensiyaların təsərrüfat fəaliyyətinin real faktlarına uyğunluq (və ya fərqlilik) dərəcəsi müəyyənləşdirilir. Real həyatda ayrı-ayrı fərdlərdən və firmadan başlamış bazarlara və regionlara qədər müxtəlif subyektlərin fəaliyyətinə xas olan davranış yanaşması müntəzəm surətdə təkrarlanır, mürəkkəbləşir və ənənəvi iqtisadiyyatın qanunlarına heç də həmişə riayət etməyən agentlərin fəaliyyətinin əsas motivlərini aşkar etməyə imkan verir.<br><br>**Fənnin tədrisi qarşısında duran vəzifələr aşağıdakılardır:**<br><br>"Davranış iqtisadiyyatı" fənninin məqsədi fənlərarası metodoloji yanaşmaları mənimsəmək, psixologiya elminin nailiyyətləri ilə müasir iqtisadiyyatın qarşılıqlı təsiri istiqamətlərini, müasir iqtisadiyyatda eksperimentlərin rolunu, insan davranışının aşkar edilmiş qanunauyğunluqlarının iqtisadi nəzəriyyəyə tətbiq edilməsinin mümkünlüyünü açıqlamaq, davranış nəzəriyyəsinin praktiki tətbiqinin müxtəlif variantlarını nəzərdən keçirmək, iqtisadi-psixoloji modellər əsasında müxtəlif təsisatlar (ev təsərrüfatları, firmalar, dövlətlər) üçün tövsiyələr və proqnozlar hazırlamaqdır.<br><br>**Fənnin, tədris planının digər fənləri arasında yeri.**<br>Bu fənnin öyrənilməsi orta məktəbdə tələbələrin əldə etdiyi riyaziyyat, tarixə dair biliklərə istinad edir, mikroiqtisadiyyat, makroiqtisadiyyat, milli iqtisadiyyat, institusional iqtisadiyyat, maliyyə,istehlak davranışı nəzəriyyəsi, müəssisə iqtisadiyyatı, və s. bu kimi tətbiqi iqtisadi fənlərin dərindən öyrənilməsi üçün zəruri əsasdır. |
| **III. Öyrənmənin nəticələri:** | "Davranış iqtisadiyyatı" fənninin mənimsənilməsindən sonra tələbələr: |

| | |
|---|---|
| | **Bilməlidirlər:**<br>– yerli və xarici tədqiqatçılar tərəfindən alınmış nəticələri və tədqiqat proqramının tərtib edilməsi üçün perspektivli istiqamətləri;<br>– bu kurs çərçivəsində tədqiqat məsələlərinin həyata keçirilməsi üçün müxtəlif informasiya mənbələri, seçilmiş elmi tədqiqat mövzusunun aktuallığının, onun nəzəri və praktiki əhəmiyyətinin əsaslandırılması;<br>– fənlərarası xarakter daşıyan tədqiqatın nəticələrini məqalə və ya məruzə şəklində elmi cəmiyyətə təqdim etməyə imkan verən tədqiqat vasitələri dəsti.<br>**Bacarmalıdırlar**:<br>–öz intellektual və ümumi mədəni səviyyəsini təkmilləşdirmək və inkişaf etdirmək;<br>– öz peşəkar fəaliyyətinin elmi və elmi-istehsalat profili dəyişən halda tədqiqatın yeni metodlarına müstəqil yiyələnmək;<br>– yeni bilik və bacarıqlara, bilavasitə fəaliyyət sahəsi ilə bağlı olmayan yeni bilik sahələri də daxil olmaqla, müstəqil surətdə (o cümlədən informasiya texnologiyalarının köməyi ilə) yiyələnmək və özünün praktiki fəaliyyətində onlardan istifadə etmək;<br>– təşkilati-idarəçilik qərarları qəbul etmək və onlar üçün, o cümlədən qeyri-standart vəziyyətlərdə məsuliyyət daşımaq;<br>– elmi araşdırmanın seçilmiş mövzusunun aktuallığını, onun nəzəri və praktiki əhəmiyyətini əsaslandırmaq;<br>– hazırlanmış proqrama uyğun olaraq müstəqil tədqiqatlar aparmaq;<br>– aparılmış tədqiqatın nəticələrini məqalə və ya məruzə şəklində elmi cəmiyyətə təqdim etmək;<br>– tapşırıqların hazırlanmasını müstəqil şəkildə həyata keçirmək və qeyri-müəyyənlik amili nəzərə alınmaqla qərar layihələri, müvafiq metodik və normativ sənədlər, həmçinin hazırlanmış layihələrin və proqramların reallaşdırılmasına dair təkliflər və tədbirlər hazırlamaq;<br>– qeyri-müəyyənlik amili nəzərə alınmaqla layihələrin effektivliyini qiymətləndirmək;<br>– iqtisadi agentlərin müxtəlif bazarlarda davranış strategiyalarını hazırlamaq.<br>**Yiyələnməlidirlər:**<br>– auditoriya qarşısında çıxış etmək və elmi nitq söyləmək bacarıqları;<br>– müxtəlif mülkiyyət formalı müəssisə və təşkilatlarda, dövlət və bələdiyyə hakimiyyəti orqanlarında iqtisadi xidmətlərə və bölmələrə rəhbərlik metodları;<br>– idarəçilik qərarlarının variantlarının hazırlanması və sosial-iqtisadi effektivlik meyarları əsasında onların seçiminin əsaslandırılması metodları;<br>– ali təhsil müəssisələrində iqtisadi fənlərin tədrisinin müasir metodları və metodikaları; |

| | |
|---|---|
| | – ali təhsil müəssisələrində iqtisadi fənlərin tədrisi üçün planların, proqramların və müvafiq metodik təminatın hazırlaması metodları. |
| **IV. Fənnin mühazirə mövzuları** | **Fənnin tədrisi prosesində tələbələrə aşağıdakı mövzularda mühazirələr təqdim ediləcək:**<br>1.Davranış iqtisadi nəzəriyyəsinin genezisi<br>2.Davranış iqtisadiyyatının təbiəti<br>3. Davaranış iqtisadiyyatının metodologiyası<br>4. Dəyərlər, üstünlüklər, seçimlər<br>5. İnanclar, evristika, qərəzlər<br>6. Firmanın davranış nəzəriyyəsi<br>7. Şəxsiyyətin davranış nəzəriyyəsi<br>8. Davranışın maliyyə nəzəriyyəsi<br>9. Perspektiv nəzriyyəsi<br>10.Oyunlar nəzəriyyəsi<br>11.Xoşbəxtlik iqtisadiyyatı<br>12.Sosial üstünlüklər |
| **V. Fənnin mühazirə mətnləri** | Fənnin bütün mövzuları üzrə mühazirə mətnləri, müzakirə sualları və tapşırıqlar, habelə müxtəlif növ məşğələ materialları elektron formatda Universitetin saytında "Virtual universitet" bölməsində (www.vu.aseu.az) yerləşdirilir. |
| **VI. Prerekvizitlər** | Mikroiqtisadiyyat |
| **VII. Fənnin tədris metodologiyası** | "Davranış iqtisadiyyatı" fənninin öyrənilməsi prosesində tədrisin aşağıdakı metodları istifadə olunur:mühazirələr; mühazirələrdə işıqlandırılan və ev tapşırıqlarında formulə edilən əsas problemlərin müzakirə edildiyi seminarlar; kompüter məşğələləri; yazılı və ya şifahi ev tapşırıqları; hesablama-təhlil, hesablama-qrafik tapşırıqları; tələbələr tərəfindən hazırlanmış esselərin müzakirəsi; müəllimlərin məsləhətləri; tələbələrin nəzəri materialın mənimsənilməsini ehtiva edən sərbəst işi, seminar məşğələlərinə hazırlıq, yuxarıda göstərilmiş yazılı işlərin yerinə yetirilməsi.<br>Bundan əlavə tədris və təlim prosesində xarici ədəbiyyatdan, habelə beynəlxalq və yerli mediadan (internet resurslarından) götürülmüş məqalələrin, real nümunələrin və xüsusi keyslərin təhlilinə, müzakirəsinə və məntiqi nəticələr çıxarılmasına xüsusi diqqət ayrılacaq. Verilən biliklərin tətbiqi bacarıqlarının formalaşdırılması üçün tələbələr mövzuya uyğun seçilmiş tapşırıqları həll edəcəklər.<br>Hər bir yeni mövzunun tədrisi öncəsi tələbələr müəyyən olunmuş mətnləri və onlara təqdim edilmiş (tapşırılmış) digər qiraət materialları ilə tanış olmalıdırlar. |

| | |
|---|---|
| **VIII. Əsas dərslik və dərs vəsaitləri** | **Əsas dərslik**<br><br>1.Devrim Dumludağ, Özge Gökdemir, Levent Neyse, Ester Ruben *“İktisatta dauranışsal yaklaşimlar”* Türk dilində.<br>2.Nick Wilkinson and Matthias Klaes *“An Introduction to Behavioral Economics”* İngilis dilində.<br>3.*“Поведенческая экономика: современная парадигма экономического развития”* Q.P.Juravlyovanın ümumi redaktəsi ilə Rus dilində.<br><br>**Əlavə dərsliklər**<br><br>1.Ричард Талер. Новая поведенческая экономика: почему люди нарушают правила традиционной экономики и как на этом заработать - (перевод с англ. А.Прохоровой) - Москва: Эксмо, 2021.-384 с.<br>2. Colin F. Camerer, George Loewenstein, and Matthew Rabin - Advances in Behavioral Economics. Copyright © 2004 by Russell Sage Foundation, Published by Princeton University Press – 2004 |

**IX. Mövzuların məzmunu və tədris-tematik bölgüsü**

| Həftə № | Mövzular | Mühazirə | Məşğələ | Öyrənmə hədəfləri |
|---|---|---|---|---|
| 1 | **Davranış iqtisadi nəzəriyyyəsinin genezisi**<br><br>*Mənbə: Devrim Dumludağ, Özge Gökdemir, Levent Neyse, Ester Ruben “İktisatta davranışsal yaklaşımlar”, Fəsil 5; Q.P. Juravlyova “Поведенческая экономика: Современная парадигма экономического развития”, Fəsil 1* | 1 | 1 | 1. İqtisadiyyatın ən sadə dərki. İqtisadiyyatın müxtəlif mənalarda və səviyyələrdə səciyyələndirilməsi<br>2.Davranış iqtisadi nəzəriyyəsinin prinsipial fərqləri<br>3.Davranış iqtisadiyyatı ideyasının ilk mənbələri<br>4.Davranış iqtisadi nəzəriyyəsi baniləri<br>5.Qərarlar qəbul edilməsi prosesi |
| 2 | **Davranış iqtisaiyyatının təbiəti**<br><br>*Mənbə:Nick Wilkinson and Matthias Klaes “İntroduction to behavioral economics”, Fəsil 1* | 2 | 2 | 1.Davranış iqtisadiyyatı nədir?<br>2.İqtisadi rasionallığa dair davranış perspektivləri<br>3.Standart modelin xarakteri<br>4.Standart modelin tətbiqi<br>5.Klassik və neoklassik yanaşmalar<br>6.Müharibədən sonrakı iqtisadi yanaşmalar<br>7.İqtisadiyyatda bixeviorizmin yenidən canlanması<br>8.Təkamül biologiyası<br>9.Koqnitiv nevrologiya |

| | | | | |
|---|---|---|---|---|
| 3 | **Davranış iqtisadiyyatının metodologiyası**<br><br>*Mənbə:Nick Wilkinson and Matthias Klaes "İntroduction to behavioral economics", Fəsil 2;*<br>*Q.P. Juravlyova "Поведенческая экономика: Современная парадигма экономического развития", Fəsil 2* | 3-4 | 3-4 | 1.Nəzəriyyələr və fərziyyələr<br>2.Nəzəriyyələrin qiymətləndirilməsi<br>3.Reduksionizm<br>4.Empirik tədqiqatın növləri<br>5.Sahə tədqiqatları<br>6.Eksperimental tədqiqatlar<br>7.Neyroiqtisadiyyat<br>8.Davranış yetərliliyi<br>9.Xoşbəxtlik<br>10.İqtisadi nəzəriyyənin məhdudiyyətləri<br>11.Oyunlar nəzə**riyyəsi** |
| 4 | **Dəyərlər, üstünlüklər, seçimlər**<br><br>*Mənbə:Nick Wilkinson and Matthias Klaes "İntroduction to behavioral economics", Fəsil 3* | 5-6 | 5-6 | 1.Qərar vermə prosesi<br>2.İstehlakçı davranışı<br>3.Üstünlüklər<br>4.Birtərəflik (fərqsizlik) əyriləri<br>5.Tarazlıq<br>6.Aksiomalar<br>7.Fərziyyələr<br>8.Təriflər<br>9.Faydalılığın xarakteri və funksiyaları<br>10.Seçim prosesinin növləri<br>11.Təkamül və optimallaşdırma<br>12.Rasionallıq meyarları<br>13.Xoşbəxtlik üç pərdəli faciədir<br>14.Obyektiv səbəblərlə subyektiv təsirlər arasındakı uyğunsuzluq<br>15.Gözləntilərin effektləri<br>16.Asılılıq və çəkinmə<br>17.İanə effektləri<br>18.Çərçivələmə effektləri<br>19.Lövbər effekti<br>20.Menyu effektləri<br>21.Diqqət<br>22.Viseral faktor (intuitiv, daxili faktorlar)<br>23.Tarixi təkamül<br>24.Kardinal və ordinal faydalılıq<br>25.Qərar vermənin faydalılığı<br>26.Təcrübəli faydalılıq<br>27.İanə və kontrast effektləri<br>28.Gözlənilən faydalılıq<br>29.Qalıq faydalılığı<br>30.Tranzaksiya faydalılığı<br>31.Metodlar və müqayisələr<br>32.Faydalılıq və istinad asılılığının xarakteri<br>33.Zərərdən çəkinmə |

| | | | | |
|---|---|---|---|---|
| | | | | 34.Faydalılığın ölçülməsi<br>35.Nəticələr<br>36.Bonus paketləri və qiymət endirimləri<br>37.Münsiflər heyəti cəzalandırıcı təzminat təyin edir<br>38.Şərti Qiymətləndirmə Metodu (CVM) və İctimai Əmtəələr<br>39.Cinayət və cəza<br>40.Menyu effektləri<br>41.Plasebo effektləri |
| 5 | **İnanclar, Evristika, Qərəzllər**<br><br>*Mənbə:Nick Wilkinson and Matthias Klaes "İntroduction to behavioral economics", Fəsil 4* | 7 | 7 | 1.Fərziyyələr<br>2.Əlçatanlıq evristikası<br>3.Təmsilçilik evristikası<br>4.Baza dərəcəsi qərəzliliyi<br>5."Kiçik ədədlər qanunu"<br>6.Aşırı güvən<br>7.Güvənsizlik<br>8.Şəxsi maraq qərəz (Özünə xidmət edən qərəz, eqoist qərəzi)<br>9.Viseral uyğunluq<br>10.Taleyin sınağı<br>11.Yoluxma<br>12.Emosional sıxıntı<br>13.Yaddaş<br>14.Koqnitiv dissonans<br>15.Özgüvən üçün təhlükə<br>16.Özünü tənzimləmənin uğursuzluğu<br>17.Qərar yorğunluğu<br>18.Şəxslərarası rədd<br>19.Təkamül neyrobiologiyasında əsaslar |
| 6 | **Firmanın davranış nəzəriyyəsi**<br>*Mənbə: Q.P. Juravlyova "Поведенческая экономика: Современная парадигма экономического развития", Fəsil 6* | 8 | 8 | 1.Firma nəzəriyyələri<br>2.Q. Saymonun "Məhdud rasionallıq" anlayışı<br>3.H. Leybenşteynin dəyişən rasionallıq konsepsiyası<br>4.Firma üzvlərinin koalisiyası |
| 7 | **Şəxsiyyətin davranış nəzəriyyəsi**<br>*Mənbə: Q.P. Juravlyova "Поведенческая экономика: Современная парадигма экономического развития", Fəsil 7* | 9 | 9 | 1.İqtisadiyyatda insan davranışının ən mühüm modelləri<br>2.Psixologiya elmində şəxsiyyətin öyrənilməsinə əsas yanaşmalar<br>- D.Kahneman və A.Tverskinin şəxsiyyətin davranış nəzəriyyəsi<br>- B. Skinner və A. Bandura tərəfindən şəxsiyyətin davranış nəzəriyyəsi<br>- J. Rotterin şəxsiyyət modeli<br>3.Psixologiyada şəxsiyyət davranışı nəzəriyyəsi |

| | | | | |
|---|---|---|---|---|
| 8 | **Davranışın maliyyə nəzəriyyyəsi**<br><br>*Mənbə: Devrim Dumludağ, Özge Gökdemir, Levent Neyse, Ester Ruben “İktisatta davranışsal yaklaşımlar”, Fəsil 6; Q.P. Juravlyova “Поведенческая экономика: Современная парадигма экономического развития”, Fəsil 10* | 10 | 10 | 1.Maliyyə münasibətləri iştirakçılarının rasional və irrasional davranışı<br>2. Maliyyə və aktiv bazarlarına həddən artıq inam<br>3. Maliyyə və aktiv bazarlarında zərərdən qaçma<br>4.Hərraclar və hərrac mexanizmləri |
| 9 | **Perspektiv nəzəriyyəsi**<br><br>*Mənbə: Q.P. Juravlyova “Поведенческая экономика: Современная парадигма экономического развития”, Fəsil 3* | 11 | 11 | 1. Perspektiv nəzəriyyəsinin mənşəyi<br>2. D. Kahneman və A.Tverskinin perspektiv nəzəriyyəsi<br>3. Perspektiv nəzəriyyəsi modeli |
| 10 | **Oyunlar nəzəriyyəsi**<br><br>*Mənbə: Devrim Dumludağ, Özge Gökdemir, Levent Neyse, Ester Ruben “İktisatta davranışsal yaklaşımlar”, Fəsil 9; Q.P. Juravlyova “Поведенческая экономика: Современная парадигма экономического развития”, Fəsil 4* | 12 | 12 | 1.İqtisad elmi sahəsində oyunlar nəzəriyyəsinin riyazi aparatından istifadə edilməsi<br>2.Davranış oyunlar nəzəriyyəsinin məzmunu və prinsipləri<br>3.Oyunlar nəzəriyyəsində əsas həll konsepsiyası kimi Neş tarazlığı<br>4.Ultimatum ilə standart oyun<br>5.İsveçrə alimləri S.Qester və E.Fer tərəfindən aparılan təcrübə<br>6.M.Rabin modeli<br>7.Kooperativ olmayan oyunlar nəzəriyyəsi.<br>8.Bertran və Kurno modelləri<br>9.Dinamik rəqabət modeli<br>10.Qrin və Porterin super oyun modeli<br>11.Davranış oyunlar nəzəriyyəsinin əhəmiyyəti |

| | | | | |
|---|---|---|---|---|
| 11 | **Xoşbəxtlik iqtisadiyyatı**<br><br>*Mənbə: Devrim Dumludağ, Özge Gökdemir, Levent Neyse, Ester Ruben "İktisatta davranışsal yaklaşımlar", Fəsil 13* | 13 | 13 | 1.Xoşbəxtlik tədqiqatlarının artım səbəbləri.<br>2.Xoşbəxtliyin tədqiqi tarixi:<br>-antik dövr<br>-aydınlanma dövrü<br>-müasir dövr<br>3.Xoşbəxtliyi ölçmək mümkündürmü?<br>4.Bu gün daha çox xoşbəxtik? Xoşbəxtlik analizi və müzakirəsi<br>5.İqtisadiyyat, İqtisadçılar və Xoşbəxtlik:<br>-klassik dövr<br>-marjinal inqilabdan sonrası dövr<br>-yaxın dövr<br>6.Xoşbəxtliyin modellənməsi<br>7.Xoşbəxtlik göstəriciləri:<br>-xoşbəxtlik və gəlir<br>-uzunmüddətli dövrdə xoşbəxtlik və gəlir<br>-məşğulluq, inflyasiya və xoşbəxtlik<br>-sosial-iqtisadi göstəricilər və xoşbəxtlik<br>8.Məhdudiyyətlər və mübahisələr<br>9.Nəticə |
| 12 | **Sosial üstünlüklər**<br><br>*Mənbə:Nick Wilkinson and Matthias Klaes "İntroduction to behavioral economics", Fəsil 10* | 14-15 | 14-15 | 1.Xarakter<br>2.Anomaliyalar<br>3. Sosial üstünlüklər və ədalət<br>4.Qarşılıqlılıq<br>5.Ədalət oyunları və standart model<br>6.Metodoloji və struktur amillər<br>7.Təsviri amillər<br>8.Demoqrafik dəyişənlər<br>9.Sosial normal<br>10.Modelləşdirmənin məqsədləri<br>11.Modelləşdirmədə problemlər<br>12.Psixoloji oyun nəzəriyyəsi<br>13.Modellərin xarakteri və xüsusiyyətlər<br>14.Fehr-Şmidt modeli<br>15.Bolton-Okkenfels modeli<br>16.Rabin modeli<br>17.Folk-Fiskbeyçer modeli<br>18.Davranış tədqiqatları<br>19.Təkamül psixologiyası<br>20.Neyroloji tədqiqatlar<br>21.Əmək bazarları<br>22.Bazarın təmizlənməsi<br>23.İctimai mallar |

| | |
|---|---|
| **X. Seminar-məşğələlər: hazırlıq və qiymətləndirmə** | Seminar-məşğələ dərslərində tələbə öz fikirlərini məntiqi ardıcıllıqla ifadə və izah etməyi, habelə arqumentlərlə əsaslandırmağı bacarmalıdır. Buna nail olmaq üçün tələbə:<br>1.Seminar məşğələsinin hər bir mövzusu üzrə müzakirəyə çıxarılan suallarla diqqətlə tanış olmalı;<br>2.Müvafiq mühazirə materiallarını diqqətlə öyrənməli;<br>3.Mövzu üzrə tövsiyə edilən ədəbiyyatı oxumalı və öyrənməli;<br>4.Seminar məşğələsində müzakirəyə çıxarılan hər bir sual üzrə qısa çıxış hazırlamalı;<br>5.Mövzu üzrə verilən tapşırıqları və məsələləri yerinə yetirməklə praktik bacarıqlara yiyələnməlidir.<br>Tələbə semestr ərzində 100 bal toplamalıdır. 20 bal seminar (məşğələ) dərsində toplanır. Tələbə seminar balını gündəlik olaraq dərsdə aktivlik göstərməklə toplayır. Tələbə hər 10 bal qiymətləndirildikdə yekunda hesabına 5 bal toplayır. Beləliklə tələbə dərslər zamanı ən azı 4 dəfə qiymət almalıdır ki, cəmi 20 bal toplamış olsun. Tələbənin dərsə davamiyyəti qeydə alınır. Davamiyyət tələbənin aktivlik balının toplanmasında əhəmiyyət kəsb edir<br>Seminarlar frontal sorgu, yazılı tapşırıqlar, testlər, keyslər və tələbələrin hazırladıqları prezentasiyalar üzrə keçirilir. |
| **XI. Fənn üzrə kurs işi** | Fənn üzrə kurs işi nəzərdə tutulmayıb. |
| **XII. Dərsə davamiyyət** | Tələbə fənn üzrə ümumi tədris yükünün 25%-dən çox (14 saatdan çox) davamiyyətsizlik göstərərsə, o, yekun imtahana buraxılmır. Bu halda tələbə bu fəndən krediti qazanmır və onun fənn üzrə akademik borcu qalır. |
| **XIII. Aralıq qiymətləndirmə** | Fənnin tədrisi prosesində tələbənin dərslərdəki cari fəallığı (mühazirədəki fəallıq, seminar-məşğələdə cavabları, qrup işlərində iştirakı və s.) 10 ballıq sistemlə 0-10 bal arasında qiymətləndirilir.<br>Fənnin tədrisi prosesində tələbənin əldə etdiyi bilik və bacarıqları 1 dəfə ara qiymətləndirmə keçirilməklə qiymətləndirilir. Ara qiymətləndirmə müvafiq olaraq, tədrisin birinci və ikinci ayı başa çatdıqdan sonra yalnız həmin dövrdə keçirilən mövzuları əhatə edən suallar əsasında təşkil olunur. Ara qiymətləndirmə yazılı üsul formasında keçirilir.<br>Ara qiymətləndirmədə tələbənin bilikləri 10 ballıq sistem üzrə 0-10 bal arasında (maksimum 10 bal) qiymətləndirilir. Tələbə ara imtahanda iştirak etmədikdə jurnalda "0" (sıfır) bal qeyd olunur. |
| **XIV. Yekun imtahan** | Fənnin tədrisinin sonunda bir dəfə yekun imtahan təşkil olunur.Tələbənin imtahandakı cavabı 0-50 bal aralığında (maksimum 50 bal)qiymətləndirilə bilər. İmtahan yazılı formada yaxud test qaydasında təşkil olunur. Fənn üzrə imtahan sualları yaxud testlər mühazirə mətnləri və məşğələ dərslərinin məzmununa uyğun olaraq tərtib edilir. |

Yekun imtahanda tələbə minimum 17 bal toplamazsa, onda imtahana qədər yığılan ballar toplanmır, tələbə bu fəndən krediti qazanmır və onun fənn üzrə akademik borcu qalır.

İmtahanın nəticələrinin qiymətləndirilməsi ilə bağlı tələbənin hər-hansı şikayəti olarsa, tələbə Universitetdə müəyyən olunmuş ümumi qaydalar əsasında Apellyasiya Komissiyasına müraciət edə bilər.

**XV. Fənn üzrə yekun qiymətləndirmə**

Fənn üzrə tələbələrin yekun biliyi 100 ballıq sistem üzrə qiymətləndirirlir. Balların maksimum miqdarı -100 baldır.

Yekun imtahandan sonra tələbənin fənn üzrə topladığı bütün ballar toplanır və yekun qiymət (bal) hesablanır.

| **İstiqamət** | **Ballar** | **Faiz** |
|---|---|---|
| Yekun imtahan | 50 | 50 % |
| Seminar (məşğələ) və ya laborator dərslərin nəticələrinə görə | 20 | 20 % |
| Tələbələrin sərbəst işinə görə | - | - |
| Ara imtahan | 30 | 30 % |
| **Cəmi:** | **100** | **100 %** |

Fənn üzrə semestr ərzində (imtahana qədər və imtahanda) tələbənin topladığı balın yekun miqdarına görə onun yekun biliyi aşağıdakı kimi qiymətləndirilir:

51 baldan aşağı olduqda - “qeyri-kafi” – **F**
51-60 bal - “qənaətbəxş” – **E**
61-70 bal - “kafi” – **D**
71-80 bal - “yaxşı” – **C**
81-90 bal - “çox yaxşı” – **B**
91-100 bal - “əla” – **A**

Tələbənin topladığı yekun bal 51 baldan aşağı olduqda (yəni onun biliyi “qeyri-kafi” qiymətləndirildikdə) tələbə bu fəndən krediti qazanmır və onun fənn üzrə akademik borcu qalır.